**Azərbaycan Respublikasının**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Sizi və Auditorlar Palatasının bütün üzvlərini Palatanın yaradılmasının 25-ci ildönümü münasibətilə təbrik edir və ölkə iqtisadiyyatının inkişafı yolunda həyata keçirdiyiniz mühüm vəzifələrin icrasında uğurlar arzulayıram.

Auditorlar Palatası artıq 25 ildir ki, ölkəmizdə sərbəst bazar iqtisadiyyatı münasibətlərinin inkişafı, maliyyə intizamının gücləndirilməsi və maliyyə sektorunda şəffaflığın təmin olunması sahəsində müstəsna xidmətlər göstərir. Milli audit sisteminin bərqərar olunması müstəqil audit xidmətinin inkişafına, sağlam rəqabət mühitinin formalaşmasına, kölgə iqtisadiyyatı və korrupsiya ilə mübarizənin güclənməsinə əsaslı zəmin yaratmaqla bütövlükdə ölkə iqtisadiyyatının inkişafının etibarlı təminatçısına çevrilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası ötən dövrdə uğurlu və şərəfli inkişaf yolu keçərək bazar yönümlü iqtisadi strukturlar sistemində özünə layiqli yer tutmuşdur. Bugün auditor fəaliyyəti maliyyə resurslarından səmərəli istifadə, investisiya qoyuluşlarının düzgün qiymətləndirilməsi, açıq və demokratik prinsiplərə əsaslanan dövlət quruculuğunun sürətləndirilməsində mühüm rol oynayır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi və Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının qətiyyətlə, ardıcıl və uğurla davam etdirdiyi milli inkişaf konsepsiyasının həyata keçirilməsində Auditorlar Palatası öz töhfələrini verməkdədir.

Yubileyiniz münasibətilə Dövlət Gömrük Komitəsinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq, ərazi bütövlüyümüz uğrunda şanlı Zəfər çalan ölkəmizin iqtisadi mənafelərinin etibarlı təminatı naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

**Azərbaycan Respublikası**
**Dövlət Gömrük Komitəsinin sədri,**
**gömrük xidməti general-polkovniki** **Səfər Mehdiyev**